# “Karvan”ın rənglər aləmi

**Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına Sərgi Salonunda “KARVAN” art qrupunun təşkilatçılığı ilə “Portal 13” adlı sərginin açılışı olub.**



Mərasimdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa və sədr müavini, Əməkdar rəssam Ülviyyə Həmzəyeva, Tacikistan Rəssamlar İttifaqının sədri Nərgiz Həmidova və başqaları iştirak ediblər.

Tacikistan Rəssamlar İttifaqının sədri Nərgiz Həmidova burada çoxsaylı sənətsevərləri görməkdən məmnunluğunu bildirib. Azərbaycan və Tacikistan arasında mədəni əməkdaşlığın bundan sonra da yüksək səviyyədə inkişaf edəcəyinə inamını bildirib.

Qeyd edək ki, sərgi “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində, Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı və Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə təşkil olunub. Mayın 25-nə qədər nümayiş olunacaq ekspozisiya “Portal 13” adlanır. “Qapı”, “giriş” mənasını verən bu ad elə ilk andan seyrçilərini sanki başqa aləmə aparır. Sərginin kuratoru sənətşünas Xanım Rzayevadır.

2022-ci ildə rəssam Cavid Məmmədovun təşəbbüsü ilə yaradılan “KARVAN” art qrupunun əsas məqsədi, sərgidən də göründüyü kimi, incəsənət sahəsində fərqli yaradıcılıq tərzində işləyən, insanların bədii zövqünə təsir etməklə cəmiyyətə pozitiv enerji impulsları ötürmək niyyətində olan düşüncə sahiblərini bir araya gətirməkdir. “KARVAN” art qrupu hazırda Azərbaycanda və xaricdə tanınan, özünəməxsus texnikası, üslubu, gözəllik idealları ilə sənət əsərlərini ortaya qoyan 13 yaradıcı şəxsi bir araya gətirib.

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev XQ-yə açıqlamasında bildirdi:**

– Mən “KARVAN”çıların ilk sərgilərində də iştirak etmişəm. Burada da rəssamların çəkdikləri əsərlərdə kifayət qədər yenilik müşahidə olunur. Müxtəlif janrlarda işlənilən əsərlər maraq doğurur. Düzünü desəm, ilk sərgidən fərqli olaraq, bu dəfə daha çox düşündürücü elementlərə rast gəldim. Tablo ilə tamaşaçı arasında ünsiyyət yaradan bu əsərlər insanların sənət zövqünün və dünyagörüşünün xeyli zənginləşməsinə kömək edir.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Xalq qəzeti.- 2024.- 23 may, № 107.- S.10.